# Azərbaycanın müdafiə sənayesi uğurla inkişaf edir




***Azərbaycan 30-dan çox ölkəyə öz hərbi məhsullarını ixrac edir və biz artıq əsas ehtiyaclarımızı ödəyən hərbi sənaye kompleksini inkişaf etdirmişik. Biz bunu davam etdiririk, çünki qeyd etdiyim kimi, hələ də erməni revanşizmi təhlükəsi var, hələ də sabitliyin pozulması təhlükəsi var. Beləliklə, biz hər zaman sərhədlərimizi müdafiə etməyə hazır olmalıyıq.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

***Ordu quruculuğu, ölkəmizin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da gücləndirilməsi Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən bu gün də qarşıya qoyulan əsas vəzifələrdən biridir. Buna görə hazırda Silahlı Qüvvələrimizin müasir hərbi texnika və silah-sursatla təchizatı, təhlükəsizliyin təmin olunması məqsədi ilə zəruri hərbi infrastrukturun yaradılması, hərbçilərin sosial-məişət və xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlərin gerçəkləşdirilməsi daim diqqət mərkəzində saxlanılır.***

Dövlətimizin başçısı müsahibələrinin birində bu barədə danışaraq, hərbi quruculuq məsələlərinin onun gündəliyində hər zaman birinci dərəcəli yer tutduğunu deyib: “Bu mövzu həm mənim iş qrafikimdə, həm açıq çıxışlarımda, həm də həmkarlarımla əlaqələrimdə həmişə üstünlük təşkil edib. Təbii ki, bu mövzu ətrafında xalqımız birləşib və Azərbaycanın ərazi bütövlüyünün bərpasına nail olub. Təsadüfi deyil ki, dövlət büdcəsi nəzərdən keçiriləndə və hazırlananda da bu, diqqətdə saxlanılıb…”

Son illər Azərbaycanın sürətli tərəqqisi nəticəsində ölkəmizin güclü iqtisadi və hərbi potensialı formalaşıb, cəmiyyət həyatının bütün sahələri inkişaf edib. Azərbaycanın hərbi qüdrəti durmadan artıb, müdafiə sənayesi uğurla inkişaf edib. Hazırlanan hərbi təyinatlı məhsulların çeşidi çoxalıb, ordumuzun ən müasir silah növləri ilə təchizatı üçün zəruri addımlar atılıb. Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində Müdafiə Sənayesi Nazirliyi tərəfindən bu istiqamətdə önəmli uğurlar əldə edilib. Ordu quruculuğu sahəsində də islahatlar aparılıb, Silahlı Qüvvələrin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində genişmiqyaslı layihələr gerçəkləşdirilib.

Müdafiə Sənayesi Nazirliyi qısa müddətdə tabeli müəssisələrində istehsal olunan müdafiə təyinatlı məmulatları beynəlxalq sərgilərdə nümayiş etdirməklə yanaşı, böyük təcrübə toplayaraq, Azərbaycanda “ADEX” adı altında beynəlxalq müdafiə sərgilərinin keçirilməsinin təşkilatçısına çevrilib. Reallaşdırılan sərgilərdə Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal olunan müdafiə təyinatlı məmulatlar Azərbaycan brendi kimi nümayiş etdirilib. Həmin məmulatlar xarici və yerli nümayəndə heyətləri, eləcə də sadə xalq tərəfindən böyük maraqla qarşılanıb.

***(ardı 3-cü səhifədə)***

# Azərbaycanın müdafiə sənayesi uğurla inkişaf edir

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycanın müdafiə sənayesi məhsulları 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın azad edilməsi uğrunda aparılan Vətən müharibəsində uğurla sınaqdan çıxarıldı. İkinci Qarabağ savaşında adı çəkilən nazirliyin istehsalı olan müasir silah-sursatın, pilotsuz uçuş aparatlarının uğurlu tətbiqi tarixi qələbənin qazanılmasında mühüm rol oynadı.

Dövlətimizin başçısı çıxışlarının birində Vətən müharibəsindəki parlaq qələbəmizi şərtləndirən amillərdən danışarkən, müdafiə sənayesinin istehsalı olan silah-sursatın da önəmini xüsusi vurğulayıb. Azərbaycan Prezidenti hava hücumundan müdafiə sistemi, dronlar, artilleriya – bu amillərin birləşməsi, üstəlik, ilk növbədə, öz həyatlarını qurban verən əsgər və zabitlərimizin motivasiyası, cəsarəti çox çətin coğrafi şəraitdə zəfərin əldə edilməsində həlledici rol oynadığını bildirib.

Sentyabrın 6-da paytaxtımızda keçirilən 4-cü Azərbaycan Beynəlxalq Müdafiə “ADEX” və 13- cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə “Securex Caspian” sərgilərinin açılış mərasimi də ölkəmizdə bu sahənin inkişafının daim diqqət mərkəzində saxlanılmasından xəbər verir.

Xatırladaq ki, “ADEX” sərgisi Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı, həmçinin Müdafiə Nazirliyinin dəstəyi ilə keçirilir. Tədbirin təşkilati işlərinin icrası isə “Caspian Event Organisers” şirkəti tərəfindən reallaşdırılır.

Qeyd edək ki, “ADEX” müasir silah və texnikanın sərgisi pandemiyanın yaratdığı məcburi fasilədən sonra gerçəkləşir. Sərginin xüsusi əhəmiyyəti isə ondan ibarətdir ki, belə bir möhtəşəm tədbir Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı şanlı zəfərdən sonra ilk dəfə keçirilir.

Sərgidə Azərbaycan Ordusunun Vətən müharibəsində əldə etdiyi qələbədə müstəsna rol oynamış hərbi-sənaye kompleksinin istehsalı olan müasir silahlar nümayiş etdirilir. Burada ümumilikdə 1000-dən artıq silah-sursat istehsal edən Müdafiə Sənayesi Nazirliyinin birlik və müəssisələrinin 179 adda məhsulu sərgilənir.

İki yüzdən çox şirkəti bir araya gətirən “ADEX” Bakı Ekspo Mərkəzinin üç pavilyonunda və açıq sahəsində yerləşən iştirakçılar arasında Bolqarıstan, Çin, Fransa, İtaliya, Niderland və digər ölkələrin müdafiə sektorunun aparıcı şirkətləri var.

“ADEX-2022” sərgisində təyyarə və aviasiya sistemləri, dəniz gəmiləri və hərbi dəniz sistemləri, zirehli döyüş nəqliyyat vasitələri, radioelektron sistemlər, C4ISR, optik-elektron avadanlıq və sistemlər, pilotsuz sistemlər, hərbi geyim və ləvazimatlar, silah və sursat, simulyatorlar və təlim sistemləri, radiasiya, kimyəvi və bioloji müdafiə (RKB), hərbi təşkilatlar, ixracın təşviqi ilə məşğul olan müəssisələr və s. sektorlar təmsil olunurlar.

Müasir silah və texnika sərgisi olan “ADEX” Azərbaycan Respublikasının hərbi sənaye kompleksinin güc və qüdrətini göstərir. Burada yerli istehsal olan ən son silah və hərbi texnika nümayiş etdirilir. Hər bir peşəkar ölkə müdafiə kompleksindəki yeniliklərlə, həmçinin Azərbaycan Silahlı Qüvvələrinin mövcud və artmaqda olan imkanları ilə tanış olur.

Ekspertlərin fikrincə, sərgidə müasir silah növlərinin genişmiqyaslı nümayişi Silahlı Qüvvələrimizin texniki cəhətdən yenidən təchiz olunmasına töhfə verəcək, konstruktiv ünsiyyətə, təcrübə mübadiləsinə, texniki sahədə yerli və xarici mütəxəssislər arasında səmərəli əlaqələrin qurulmasına şərait yaradacaq.



“ADEX”lə paralel olaraq, hüquq-mühafizə, sərhəd, xilasetmə, yanğınsöndürmə və xüsusi xidmət orqanları üçün ləvazimatların, kompleks mühafizə sistemlərinin və silahların perspektivli modellərini nümayiş etdirilən 13-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə “Securex Caspian” sərgisi də keçirilir. Qeyd olunan sərgi Müdafiə Sənayesi Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Dövlət Sərhəd Xidmətinin dəstəyi ilə təşkil olunur.

Bu sərgi əməkdaşlığın inkişafı, təcrübə mübadiləsi üçün əlverişli şəraitin yaradılmasına töhfə verəcək və dövlətin, cəmiyyətin, vətəndaşların daxili təhlükəsizliyinin təmin edilməsi üçün tətbiq olunan problemlərin həllinə kömək göstərəcək.

Prezident İlham Əliyev IV Azərbaycan Beynəlxalq Müdafiə “ADEX” və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə “Securex Caspian” sərgiləri ilə tanışlıq zamanı Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin pavilyonunda nümayiş etdirilən hərbi məmulatlara baxıb.

Xatırladaq ki, Milli Təhlükəsizlik Qüvvələrinin ehtiyaclarını ödəmək üçün müdafiə təyinatlı məmulatların, döyüş sursatlarının, zirehli hərbi texnikanın və digər vasitələrin yaradılması, istehsalı, təkmilləşdirilməsi, təmiri, utilizasiyası, idxal-ixracına və xarici bazarlarda satışına cavabdeh olan nazirliyin pavilyonlarında son illərdə ölkəmizdə istehsal olunan yüngül və ağır hərbi texnikalar nümayişə çıxarılıb. Döyüş kəşfiyyat texnikası, çoxməqsədli, kəşfiyyat və zərbə pilotsuz uçuş aparatları, müxtəlif çaplı atıcı silahlar, mühəndislik texnikaları və digər hərbi texnikalar sərgidə böyük maraq doğurub.

Beləliklə, IV Azərbaycan Beynəlxalq Müdafiə “ADEX” və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə “Securex Caspian” sərgiləri beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində ən müasir silahların nümayişi və yeni müqavilələrin bağlanması üçün əla platformaya çevriləcək.

Yeri gəlmişkən, burada bir məqamı da qeyd etmək istərdik. Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyə başladığı ilk gündən diqqət yetirdiyi prioritet istiqamətlərdən biri də torpaqlarımızın erməni işğalından azad edilməsi idi. Bunun üçün iqtisadiyyatın dinamik inkişafının təmin olunması, ölkənin gücləndirilməsi, sabitliyin möhkəmləndirilməsi və bütün bunlarla yanaşı, hərbi quruculuğun davamlı şəkildə aparılması daim diqqət mərkəzində saxlanılırdı. Yalnız bütün bu məqsədlərin gerçəkləşməsi ilə düşmən əsarətindəki 20 faiz torpağımız azad edilə bilərdi. Xatırladaq ki, Prezident İlham Əliyev hələ 2003-cü ildə andiçmə mərasimində çıxış edərkən, bu məsələ ilə bağlı fikirlərini diqqətə çatdırmışdı: “Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir”.

Bütün bunlara nail olmaq üçün ötən müddət ərzində ölkəmizdə müdafiə sənayesinin uğurla inkişaf etdirilməsi, hazırlanan hərbi təyinatlı məhsulların çeşidi çoxaldılması, ordumuzun ən müasir silah növləri ilə təchizatı üçün zəruri addımlar atılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində genişmiqyaslı layihələr gerçəkləşdirilməsi diqqət mərkəzində saxlanıldı.

Müharibədən sonra imzalanan yeni kontraktlar da uğurla icra edilir. Belə ki, yeni müqavilələr əsasında artıq Azərbaycan Ordusunun təchizatı üçün respublikaya ən müasir silahlar, texnikalar gətirilir və dünya da bundan xəbərdardır.

Prezident İlham Əliyev Hadrutda yeni hərbi hissənin açılışı mərasimində bununla bağlı deyib: “Biz bunu heç vaxt gizlətmirdik və işğal dövründə hərbi paradlarda dəfələrlə nümayiş etdirmişdik. Həm hərbi texnikanın alınması, həm hərbi xərclərin artırılması, eyni zamanda, hərbçilərin maaşlarının artırılması, – bütün bunlar göz qabağındadır, – onu göstərir ki, müharibə başa çatsa da, ordu quruculuğu prosesi dayanmayacaq. Əksinə, müharibə təcrübəsi bizə göstərdi ki, güclü yerlərimiz haradadır və qüsurlarımız haradadır. Müharibə dövründə qüsurlarımız çox deyildi, amma olub. Ona görə müharibə bizim üçün əvəzolunmaz təcrübə idi. Müharibədən sonra həm müasir tələblərə cavab verən silah-sursat, texnikalar alınır, eyni zamanda, yeni silahlı birləşmələr yaradılır...”

Prezident İlham Əliyev çıxışında vurğulayıb ki, Hadrutda fəaliyyətə başlayan hərbi hissədə yeni hərbi birləşmənin nümayəndələri, komando qüvvələri yerləşir. Komando Briqadasının yaradılması Azərbaycan üçün yenilikdir. Respublikamızın digər ərazilərində də artıq komando briqadaları yaradılır və bu briqadalar istənilən hərbi vəzifəni icra etməyə qadirdir.

Yüksək təlim keçən, yüksək iradə göstərən və Vətən uğrunda özlərini fəda etməyə hazır olan övladlarımız bu briqadalarda xidmət edəcəklər. Bu, Azərbaycan Ordusunun gücünü daha da artıracaq. Beləliklə, Azərbaycanın hər bir əsgər və zabiti bundan sonra da öz peşəkarlığını, yüksək mənəvi ruhunu qoruyacaq.

Ermənistanın təxribatlarına vaxtında və qətiyyətlə cavab verməsi üçün, eyni zamanda, ərazi bütövlüyümüzün, təhlükəsizliyimizin daha etibarlı müdafiəsi, qorunması, qalib Azərbaycan Ordusunun daha da qüdrətlənməsi istiqamətində dövlətimizin başçısının rəhbərliyi ilə mühüm tədbirlər həyata keçirilir. Belə ki, bütün sərhəd boyunca yerləşdirilən hərbi hissələrin maddi-texniki bazası möhkəmləndirilir, ən müasir hərbi texnika, silah və sursatlar alınır, yeni hərbi şəhərciklər inşa edilir, qarşıya qoyulan istənilən döyüş tapşırığını yerinə yetirməyə hazır və qadir əməliyyat komando hərbi hissələri fəaliyyətə başlayır, şəxsi heyətin mənəvi-psixoloji təminatının yüksəldilməsinə, Vətən müharibəsinin qəhrəmanlıq ənənələri ruhunda tərbiyə edilməsinə xüsusi önəm verilir.

**_Vaqif BAYRAMOV,_**
**_“Xalq qəzeti”_**